# Ədəbiyyat qəzeti

www.edebiyyatqezeti.net

30 yanvar 2015-ci il. Cümə    № 6-7 (4961-62)    1934-cü ildən çıxır    *www.ayb.az*    Qiymәti 40 qәpik


## VAQİF SƏMƏDOĞLU

Doğuldum 1939-da.
1937-də tutuldum.
48-də nənəm öldü,
ömrümdə ilk dəfə
ölüyə ağladım.
Balıqlar saxladım
Akvariumda.
Açıq qaldı pəncərəm
bir qış gecəsi.
Dondu balıqlar...
İndi 1965-in
yanvar gecəsidir.
Deyəsən yaşamaq istəyirəm.



# AYB-nin Gəncə bölməsində

AYB-nin Yaradıcılıq məsələləri üzrə katibi İlqar Fəhmi yanvarın 24-25-də Gəncəbasarda səfərdə olub. AYB-nin Gəncə bölməsinin plenar iclasında iştirak edən İlqar Fəhmi, AYB-nin İnternet məkanda yeni fəaliyyət proqramı ilə yerli yazarları tanış edib və bu xüsusda fikir mübadiləsi aparılıb. Gəncə yazarlarının respublika miqyasında tanıdılması və təbliği üçün hal-hazırda bütün imkanların olduğunu qeyd edən İlqar Fəhmi qələm sahiblərinə də bir qədər aktiv olmağı tövsiyə edib.

Görüşdə Gəncə bölməsinin üzvləri də təşkilati məsələlərlə bağlı öz təklif və istəklərini çatdırıblar.

Görüşdən sonra İlqar Fəhmi Gəncə şəhər İcra Hakimiyyəti tərəfindən AYB-nin Gəncə bölməsinə yeni ayrılmış ünvanda da olub, yeni otaqlarla tanış olub. Bundan sonra AYB-nin yerili bölməsi şəhərin mərkəzində, elə İcra hakimiyyətiylə eyni binada yerləşəcək. Bölmə sədri bu diqqət və qayğıya görə Gəncənin İcra başçısı Elmar Vəliyevə təşəkkürünü bildirib...

Səfər 25 yanvarda, İlqar Fəhminin Şəmkir şəhərində yerləşən "Zəka" gənclər klubunda gənc oxucularla geniş görüşü ilə başa çatıb...



**Xeyransa**

# Bakıda "Kitabi-Dədə Qorqud" və Fridrix fon Dits 200" beynəlxalq kollokviumu keçiriləcək

Yanvarın 30-31-də Bakıda "Kitabi-Dədə Qorqud" və Fridrix fon Dits – 200" beynəlxalq kollokviumu keçiriləcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondundan AzərTAc-a bildirilib ki, beynəlxalq tədbir Azərbaycan şifahi xalq ədəbiyyatının qədim yazılı abidəsi, Oğuz türk dastanı "Kitabi-Dədə Qorqud"un alman diplomatı, şərqşünası, türkoloq Fridrix fon Dits tərəfindən alman dilinə çevrilərək dünyaya tanıdılması və ilk dəfə tədqiqata cəlb edilməsinin 200-cü ildönümünə həsr olunur.

Kollokviumda "Kitabi-Dədə Qorqud" dastanının təbliğatı məqsədi ilə cari ildə keçirilməsi planlaşdırılan geniş tədbirlər planının müzakirəsi nəzərdə tutulur.

Azərbaycanla yanaşı, Avropa ölkələrindən, Türkiyədən məşhur qorqudşünasların, türkoloqların, nəşriyyat rəhbərlərinin, araşdırmaçıların iştirak edəcəyi tədbir çərçivəsində müzakirələr Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetində təşkil olunacaq. Bundan əlavə, "Kitabi-Dədə Qorqud" dastanının araşdırılması və ilboyu təbliğatının aparılmasının konkret proqramı müəyyənləşdiriləcək, kollokvium üzvlərinin yekdil rəyi əsasında qərar qəbul ediləcək.



# Natəvan klubunda

Yanvarın 27-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Osman Qazi Universitetinin professoru Tamilla Aslanxanlının Türkiyə türkcəsinə uyğunlaşdırdığı "Bayraqlarda hilalımız", "Mübarizim bir dünya", "Ömrüm saralmış yarpağa bənzəyir" kitablarının imza günü keçirilib.




"Bayraqlarda hilalımız" kitabında Azərbaycanın şair qadınlarından bəzilərinin yaradıcılıqlarından nümunələr yer alıb.

Tamilla Aslanxanlının Türkiyə türkcəsinə uyğunlaşdırdığı Fəridə Ləmanın "Mübarizim bir dünya" kitabı Azərbaycanın Milli qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr olunub.

"Ömrüm saralmış yarpağa bənzəyir" kitabında Nəzakətin şeirləri yer alıb.

Tədbirdə çıxış edən Firuzə Məmmədli Tamilla xanıma gördüyü işlərə görə təşəkkür edib: "Tamilla xanımı görəndə düşünürəm ki, o bizim ədəbiyyat bayrağımızı Türkiyədə dalğalandırır".

İmza günündə Telli Pənahqızı, Aşıq Ulduz, Oqtay Rza, Sona Çərkəz, Güləmail Murad, Salatın Əhmədli, Nəzakət, Cığatel İsaqızı və başqaları çıxış edərək Tamilla Aslanxanlıya Azərbaycan ədəbiyyatını, poeziyasını qardaş Türkiyədə təbliğ etdiyinə görə təşəkkür ediblər, ona fəaliyyətində uğurlar diləyiblər.

Tədbirdə həmçinin Tamilla Aslanxanlının tərcümə etdiyi Salatın Əhmədlinin "Heydər Əliyevin dil siyasəti", "Analar köç edərkən", Aslan Kəmərlinin "Bu yollardan Nazim keçdi", Nüsrət Kəsəmənlinin "Mənsiz qalan dünya" kitabları da oxuculara təqdim olunub.

Mərasimin sonunda çıxış edən Tamilla Aslanxanlı tədbirin keçirilməsinə görə Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyinə, iştirakçılara təşəkkürünü bildirib.

**Məlahət QƏNBƏROVA**
*AYB.az*



Azərbaycan Yazıçılar Birliyinin katibliyi böyük şairimiz

**VAQİF SƏMƏDOĞLUNUN**

vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.
Qəbri nurla dolsun.

Xalq yazıçısı Elçin və Nüşabə xanım əziz və unudulmaz

**VAQİF SƏMƏDOĞLUNUN**

vəfatından kədərlənir və Nüşabə xanıma, mərhumun bütün ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin.
Qəbri nurla dolsun.

"Ədəbiyyat qəzeti"nin kollektivi xalq şairi

**VAQİF SƏMƏDOĞLUNUN**

vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Yazıçılar Birliyinin Qazax bölməsi

**VAQİF SƏMƏDOĞLUNUN**

vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*Baş redaktor:* **Azər Turan**
*Redaksiya heyəti:* **Aqşin Babayev, Adil Cəmil (baş redaktor müavini), Aqil Abbas, Atababa İsmayıloğlu (məsul katib), Elçin İsgəndərzadə, Əkbər Qoşalı, Hidayət, İsa Həbibbəyli, Kamal Abdulla, Qəzənfər Paşayev, Nazim İbrahimov, Nəriman Həsənzadə, Nizami Cəfərov, Ramiz Rövşən, Rübail, Sabir Rüstəmxanlı, Şirindil Alışanlı, Vaqif Səmədoğlu, Zəlimxan Yaqub, Vasif Süleyman, Yunus Oğuz, Yusif Kərimov**
Şöbə redaktorları - Sərvaz Hüseynoğlu və Aydın Xan Əbilov
Dizayner: Anar Nərimanoğlu
*Təsisçilər:* Azərbaycan Yazıçılar Birliyi, "Ədəbiyyat qəzeti"nin yaradıcı əməkdaşları
"Ədəbiyyat qəzeti"nin kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.
*Redaksiya şurası:* **İmdat Avşar (Türkiyə), Yaqub Öməroğlu (Türkiyə), Betti Bleyer (ABŞ), İsmayıl Bozqurd (Şimali Kipr), Lüdmila Lavrova (Rusiya), Mahir Həmzəyev (Litva)**
*Redaksiyanın ünvanı: Bakı - AZ 1073, Mətbuat pr. 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, 9-cu mərtəbə*
*Telefonlar: baş redaktor 539-52-56, baş redaktor müavini 510-88-61, 539-50-67 məsul katib 539-91-68, şöbələr 538-03-17. Faks: 538-85-70. E-MAİL: edebiyyatqazeti@yahoo.com*
*Yazılar elektron və çap variantında qəbul edilir*
*Qəzet cümə günü çıxır*
*Çapa imzalanmışdır: 29.01.2015 saat 20 [00]*
*Şəhadətnamə N:186 Tiraj 1500 İndeks 66800 Sifariş 354*